TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_____ E.M.Ağayev

_____ 2023-cü il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

YODUN 5%-Lİ SPİRTLİ MƏHLULU xaricə istifadə üçün spirtli məhlul
SOLUTIO IODI SPIRITUOSA 5%

Beynəlxalq patentləşdirilməmiş adı: Iodine

Tərkibi:
Təsiredici maddə: 100 ml məhlulun tərkibində 5 q yod vardır.
Köməkçi maddələr: kalium yodid, etil spirti, təmizlənmiş su.

Təsviri
Xaricə istifadə üçün xüsusi qoxuya malik qırmızı-qonur rəngdə şəffaf məhluldur.

Farmakoterapevtik qrupu
Antiseptik və dezinfeksiya maddələri.
ATC kodu: D08AG03.

Farmakoloji xüsusiyyətləri
Farmakodinamikası
Antiseptik vasitədir. Əsas aktiv maddə antiseptik xüsusiyyətlərə malik olan molekulyar yoddur. Dərinin böyük səthlərinə tətbiq edildikdə, yod rezorbtiv təsir göstərir: tiroksin və triyodtironinin sintezində iştirak edir.
Etanol yodun xaric olunmasını ləngidir və onun toxumalara qıcıqlandırıcı təsirini azaldır.
Həm qrammüsbət, həm də qrammənfi floraya (ən çox *Streptococcus spp*. və *Escherichia coli*), həmçinin patogen göbələklərə və mayalara bakterisid təsir göstərir. *Staphylococcus spp*-nin əksər ştamları təsirə davamlıdır, lakin preparatın uzun müddət istifadəsi zamanı 80% hallarda stafilokokk florasının yatırılması qeyd olunur. *Pseudomonas aeruginosa* davamlıdır.
Farmakokinetikası
Dəri ilə təmasda olduqda, 30% yodidlərə, qalanları isə aktiv yoda çevrilir. Qismən sorulur. Absorbsiya olunmuş hissə toxuma və orqanlara keçir, qalxanabənzər vəzi tərəfindən seçici şəkildə sorulur. Böyrəklərlə (əsasən), bağırsaqla, tər vəziləri ilə, laktasiya dövründə ana südü ilə xaric olunur.

İstifadəsinə göstərişlər
Dərinin iltihabi və yoluxucu xəstəlikləri, cırmaq yaraları, kəsiklər, mikrotravmalar, iltihablı infiltratlar; yara kənarlarının, dərinin inyeksiyadan əvvəl hazırlanması.

Əks göstərişlər
Yoda qarşı hiperhəssaslıq olan təqdirdə istifadə olunmamalıdır.
3 yaşdan az olan uşaqlarda istifadə olunmamalıdır.

Xüsusi göstərişlər və ehtiyat tədbirləri
Dəri tamlığı pozulduqda (yaralarda) və iri dəri sahələrində istifadə etmək olmaz. Yaranın ətrafında istifadə olunduqda, yaranı məhlul ilə təmasdan qoruyun. Preparat uzunmüddətli istifadə üçün yararlı deyil. Simptomlar kəskinləşərsə həkimə müraciət edin.
Preparat qalxanabənzər vəzinin funksional testləri keçirildikdən əvvəl istifadə olunubsa, bunu həkimə bildirin.

Digər dərman vasitələri ilə qarşılıqlı təsiri
Müşahidə olunmayıb.

Hamiləlik və laktasiya dövründə istifadəsi
Dəri tamlığının pozulmasında ehtiyatla istifadə olunmalıdır.

Nəqliyyat vasitəsini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri
Müalicə dövründə nəqliyyat idarə etməkdən və yüksək diqqət və sürətli psixomotor reaksiyalar tələb edən digər potensial təhlükəli fəaliyyət növləri ilə məşğul olmaqdan çəkinmək lazımdır.

İstifadə qaydası və dozası
Xaricə.
Zədələnməmiş dəri və yaranın ətrafındakı dəri sahəsi yod məhlulu ilə isladılmış pambıq kürəciyi ilə işlənilir. Yara səthi yod məhlulu ilə təmasdan qorunmalıdır.

Əlavə təsirləri
Spirtli yod məhlulu yoda qarşı hiperhəssas olan insanlarda yerli allergik reaksiyalara, iri sahələrdə istifadə olunanda isə dəri ödemi, akne tipli səpgilərə səbəb ola bilər.

Doza həddinin aşılması
Doza həddinin aşılması halında yodizm, qıcıqlanma və dəri yanıqları mümkündür.
Müalicə: simptomatik; artıq dərmanı təmiz axan su ilə yuyun.

Buraxılış forması
10 ml və ya 20 ml məhlul şüşə flakonda. Müvafiq sayda flakon və içlik vərəqə qrup qablaşmasında.

Saxlanma şəraiti
25ºC temperaturdan yüksək olmayan, işıqdan qorumaq məqsədilə orijinal qutusunda, kip bağlanmış şəkildə və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

Yararlılıq müddəti
3 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

Aptekdən buraxılma şərti
Reseptsiz buraxılır.

İstehsalçı
"İODİCO" MMC, Azərbaycan Respublikası.
Neftçala r-nu, Həsənabad gəsəbəsi, Azərbaycan Respublikası.

Qeydiyyat vəsiqəsinin sahibi
"İODİCO" MMC, Azərbaycan Respublikası.
Azadlıq pr.1, AZ1000, Bakı, Azərbaycan Respublikası.